Əbədiyyət təqvimi

# “Sən qalib gələcəksən!” dediyin əsgərimiz müzəffərdir, Zəlimxan Yaqub!

**Bu Vətənsevər insanın, xalqın istədiyi şəkildə yazan, arzuladığı kimi danışan, hamı ilə təəssübkeşlərinin gözlədiyi kimi rəftar edən şairin vəfatından 7 il ötdü. Mən onun Vətən sevgisinə hələ dövlət radiosunda çalışdığım illərdə şahid olmuşdum. Onda Zəlimxan hələ deputat da deyildi, Aşıqlar Birliyinin sədri və əfv komissiyasının üzvü də. Sadəcə, “Yazıçı” nəşriyyatında işləyirdi. Yəni böyük vəzifəsi yox idi. Amma böyük ürək sahibi idi.**



Elə ay olmurdu ki, cəbhəyə getməsin. Hər dəfə cəbhədən qayıdan kimi mənə zəng edirdi: Mirzəbəyli, qayıtdım, zəngin təəssüratlarım var.

Təəssüratları nə barədə olsa yaxşıdır? Əsgərlərimizin mərdliyi, mərdanəliyi, zabitlərimizin peşəkarlığı haqqında daim ağızdolusu danışır və sonda dərin bir ah çəkərək davam edirdi: “Amma konkret rəhbərlik yoxdur, ay qardaş! Səni inandırıram, əgər ordumuzun vahid rəhbərliyi olsa, bu əsgərlərlə Yerevana qədər gedə bilərik. Ordumuz parça-parçadır, komanda verənlər orda-burdadır, vətənsevər ürəklər torda-dardadır”.

Zəlimxan sonralar Azərbaycan əsgərinə xitabən bir şeir yazmışdı.“Sən qalib gələcəksən!” adlı həmin şeir müstəqillik dövrümüzdə ən çox populyarlıq qazanan əsərlərdən birinə çevrilmişdi. Onu şagirdlər də əzbərləyirdilər, tələbələr də, əsgərlər də... Çox təəssüf ki, o böyük tarixi günü, Azərbaycan əsgərinin Qələbəsini Zəlimxan Yaqub görmədi.

**Sən qalib gələcəksən!**

*Addımbaşı ölümlə çarpışan, şirim mənim,*
*Ölümsüzüm, ölməzim, əbədi dirim mənim,*
*Gur ocaqlar yandıran ocağım, pirim mənim,*
*Yüz minlərin içində minim yox, birim mənim,*
*Allah özü də təkdir, baxma meydanda təksən.*
*Sən qalib gələcəksən!*

*Haqsızlığın içində boğulan haqlar da var,*
*Səddi keçilməz olan ağır sınaqlar da var,*
*Kürəyinə sancılan qanlı bıçaqlar da var,*
*Əlindən, ayağından çəkən alçaqlar da var.*
*Ağrıların, dərdlərin olsa da dağlarla tən,*
*Sən qalib gələcəksən!*

*Qoşqar, Kəpəz ağrıdan qamətini əysə də,*
*Halal bərəkətinə haram əllər dəysə də,*
*Qapını axşam-səhər qara yellər döysə də,*
*Bu torpaq başdan-başa qara libas geysə də,*
*İşıqlı yollarını tutsa da dumanla çən,*
*Sən qalib gələcəksən!*
*Yerlə göy sənə qarşı silaha sarılsa da,*
*Müqəddəs sərhədlərin min yerdən yarılsa da,*
*Yeddi milyon əsgərin yarısı qırılsa da,*
*Qəhrəman oğulların alnından vurulsa da,*
*Gülüb nahaq qanlara, olsa da düşmənin şən,*
*Sən qalib gələcəksən!*

*Bir gecənin içində ağaran saçın da var,*
*Suları qan axıdan Qarqar da, Xaçın da var,*
*Sızlayan Qarabağ da, inləyən Laçın da var,*
*Min dəfə ağır olan çəkilməz dərdlər də var,*
*İçimizi qurd kimi yeyən namərdlər də var.*
*İstiqlalın yolunda zülüm, zillət də çəksən,*
*İstiqlala çatmağa xeyli həsrət də çəksən,*
*Sən qalib gələcəksən!*
*Sən qalib gələcəksən!*

Rahat yat, şair. Azərbaycan əsgərləri qalib gələrək yeni tariximizin şanlı səhifələrini yazıblar. Bu gün artıq “sızlayan Qarabağ”ın yaraları sağalır, “inləyən Laçın”da Azərbaycan Bayrağı dalğalanır. Sənin əsgərin artıq milyonların içində tək deyil, milyonlarla dostu, qardaşı, tərəfdaşı var. O vaxt nahaq qanlara gülərək şən olan düşmən iki ildən çoxdur ki, yas içindədir. Çünki sənin qalib gələcəyinə əmin olduğun Azərbaycan əsgəri dünyaya sübut edib ki, Qarabağ Azərbaycandır!

**İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”**